# Əbədiyaşar irs



Muzeyimiz 2008-ci ildə yaradılmışdır. Elə həmin il sentyabrın 19-da möhtərəm Prezidentimiz İlham Əliyevin iştirakı ilə muzeyimizin təntənəli açılışı olmuşdur. Fərəhlə vurğulamalıyam ki, Ağstafada keçirilmiş Respublika seminar - müşavirəsində 53 muzey arasında bizim muzeyimiz tərtibatına və memarlıq üslubuna görə başqalarından seçilmiş, 8 ən yaxşı muzey sırasında adı qeyd edilmişdir.

Muzey işə başladığı gündən öz fəaliyyətini "Muzeylər haqqında" qanuna və dövlətin digər fərman, sərəncam və qərarlarına uyğun şəkildə qurmağa çalışır. Qax RİH-nin, Mədəniyyət və Turizm Nazirliyinin məsləhət və tövsiyələrini də nəzərə alaraq biz Heydər Əliyev irsinin, dövlətçilik ənənələrinin, siyasi kursunun təbliğinə xüsusi önəm veririk.

Muzeyimizlə ən çox əməkdaşlıq edən məktəblilərdir. Belə ki, məktəblilər muzeyimizdə təşkil olunan tədbirlər də yaxından iştirak edirlər. Onlara muzeyin kitabxanasından, mövcud kompüter sistemindən istifadə etmələri üçün lazımi şərait yaradılmışdır. Burada mütəmadi olaraq silsilə tədbirlər həyata keçirilir. Ulu öndər Heydər Əliyevin 87-ci ildönümü münasibəti ilə tematik gecə, ana dili günü münasibəti ilə "Heydər Əliyev və Azərbaycan dili" mövzusunda dəyirmi masa, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, Xocalı faciəsinin, 20 yanvar faciəsinin ildönümləri, Heydər Əliyev muzeyinin yaradılmasının ildönümü, Beynəlxalq Muzeylər Günü münasibətilə "Muzeylər sosial harmoniya" tədbirləri və Milli Qurtuluş günü münasibətilə şeir həvəskarları və yaradıcı insanlar arasında şeir müsabiqəsi, Heydər Əliyevin 87-ci ildönümü münasibəti ilə rayon sakinləri, məktəblilər arasında rəsm, əl işləri, şeir müsabiqələri keçirilmişdir.

Muzeydə təşkil olunan tədbirlərdə şəhərimizin balaca sakinləri də kənarda qalmamışdır. Belə ki, Qax şəhər 1, 2, 3, 4 və 5 saylı körpələr evinin uşaqları ilə birlikdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibəti ilə muzeyimizdə konsert təşkil olunmuşdur. Ulu öndərin zəngin irsini, dövlətçilik ənənələrini tədris etmək məqsədilə 2008-2009 və 2009-2010-cu tədris illərində "Ulu öndərimiz" kursları təşkil edilmişdir. Bu kursun dinləyiciləri şəhər məktəblərinin ən fəal şagirdləri olmuşlar. Kursun müdavimləri arasında bilik müsabiqələri təşkil edilmiş, fərqlənən şagirdlərə sertifikatlar, fəxri fərmanlar və qiymətli hədiyyələr verilmişdir.

13 noyabr 2009-cu il tarixində "Uşaq ili" ilə əlaqədar Heydər Əliyev muzeyi "Ulu öndərimiz " kursunun qalibləri və fəal iştirakçıları ilə birlikdə Qax rayonunun abidələrinə "Ulu Yurdum" adlı ekskursiya təşkil etmişdir.

Heydər Əliyevin həm 86-cı, həm də 87-ci ildönümü münasibətilə rayonumuzda yerləşən məktəblərin rəhbərliklərinə rəsmi məktubla müraciət



yevin tələbələrlə görüşü zamanı çəkilmiş fotoşəkil, polkovnik-leytenant Mirzəyev Abakar Rəşid oğlunun Azərbaycan Bayrağı Ordeni ilə təltif olunması zamanı çəkilmiş fotoşəkil, Giya Paçxataşvilinin "Oğul ata itirdi" əsəri, Heydər Əliyevlə bağlı xatirələri və İlisu məktəbinin 110 illiyi münasibəti ilə Heydər Əliyevin göndərdiyi təbrik məktubu kimi materiallar muzeyimizdə toplanaraq guşə yaradılmışdır. 15 iyun - Milli Qurtuluş Günü və 26 iyun - Silahlı Qüvvələr günü ilə əlaqədar muzeyimizin əməkdaşları Qax rayonunun İlisu kəndində yerləşən "N" saylı hərbi hissədəki əsgərlərinə baş çəkmişlər.

edilərək muzeyimizdə Heydər Əliyev dərslərinin keçirilməsi təklif olunmuşdur. Qax şəhər 1 saylı orta məktəbin tarix müəllimi Aysel Xəlilova, 2 saylı orta məktəbin tarix müəllimi Vidadi Şıxəmirov, 3 saylı orta məktəbin tarix müəllimi Leyla Mehdiyeva, şəhər 5 saylı orta məktəbin ibtidai sinif müəllimi Vəfa Heydərova Heydər Əliyev dərsləri keçmişlər.

Muzeyimizdə dərslərin keçirilməsi üçün əməkdaşlarımız tərəfindən hər cür şərait yaradılmışdır. Çağırış yaşına çatmış gəncləri vətənpərvərlik ruhunda tərbiyələndirmək, Heydər Əliyev irsini təbliğ etmək məqsədi ilə Qax Rayon Hərbi Komissarlığına rəsmi məktubla müraciət olunaraq çağırış günü onların hərbi xidmətə yola düşməzdən əvvəl muzeyimizlə tanışlığı təklif olunmuşdur. Qax Rayon Hərbi Komissarlığı təklifimizi dəstəkləmiş və çağırışçı gənclərin muzeyimizə gəlişini təşkil etmişdir.

Mədəniyyət və Turizm Nazirliyinin göstərişinə əsasən qabaqcıl iş təcrübəsini öyrənmək məqsədilə qonşu Zaqatala, Balakən, Qəbələ rayon muzeylərinə səyahətlər etmişik. Təcrübə mübadiləsi məqsədilə Balakən rayonunda yerləşən Heydər Əliyev muzeyinin əməkdaşları muzeyimizdə olmuşlar. Məktəblilərin yay tətili günlərində vaxtlarını səmərəli keçirmək məqsədilə muzeyimizdə tədbirlər planı tərtib olunmuş və bu sahədə müəyyən işlərin görülməsi nəzərdə tutulmuşdur.

Qax rayon ziyalıları ilə Heydər Əliyevin əlaqələrini öyrənib təbliğ etmək məqsədi ilə bir sıra işlər görülmüşdür. Belə ki, tanınmış dövlət xadimi, rayonumuzun ağsaqqalı Əhməd Əhmədzadənin Heydər Əliyevlə bağlı təəssüratları, görüşlərdə çəkilmiş fotoşəkillər, Mələk Əhmədzadənin o vaxtkı Kirovabad Kənd Təsərrüfatı İnstitutunda Heydər Əli-

**Azərbaycan xalqı xoşbəxt xalqdır. Ona görə ki, Heydər Əliyev kimi Ulu öndəri, xilaskarı olub. Onun zəngin, heç bir ölçüyə sığmayan siyasi irsinin, dövlətçilik və idarəçilik təcrübəsinin öyrənilməsinə hər an hər birimizin ehtiyacı var. Bizim üzərimizə isə Heydər Əliyev muzeyinin kollektivi olaraq bu şərəfli missiyanı davam etdirmək kimi böyük məsuliyyət düşüb...**

● **Nərminə OMAROVA,**
***Qax rayon Heydər Əliyev muzeyinin direktoru***

